**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SOSİAL TƏMİNAT HÜQUQUNUN PREDMETİ: SİSTEMLİ-HÜQUQİ TƏHLİL

İxtisas: 5609.01 – "Əmək hüququ; sosial təminat hüququ"

Elm sahəsi: Hüquq

İddiaçı: **Fəridə Məhəmmədəli qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Əmək və ekologiya hüququ" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: hüquq elmləri doktoru, professor
**Mayis Nəbi oğlu Əliyev**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, professor
**Qalina Semyonovna Skaçkova**

hüquq üzrə fəlsəfə doktoru
**Daxil Fazil oğlu Kərimov**

hüquq üzrə fəlsəfə doktoru
**Elxan Fikrət oğlu Şiriyev**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 14 sentyabr 2023-cü il tarixli 3-50/3-1-1-176/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BFD 2.44 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent
**Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent
**Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor
**Alış Məmiş oğlu Qasımov**

BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"13" 02 2024

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mürəkkəb hüquqi kateqoriya kimi çıxış edən sosial təminat sistemi Azərbaycan Respublikasında bir problem olaraq kompleks səciyyə daşıyır və onun maliyyə mənbəyinin formalaşdırılması, təşkilati və idarəçilik xarakterli məsələlərin həlli, habelə sosial sığortaya cəlb olunanların maddi təminatı sisteminin yaradılması aspektlərini əhatə edir. Bu baxımdan müasir dövrdə sosial təminat hüququ elminin və qanunvericilik praktikasının ən başlıca vəzifəsi bütövlükdə sosial təminat sisteminin mərkəzləşdirilmiş və ya mərkəzləşdirilməmiş qaydada tənzimlənməsi parametrlərini dəqiq müəyyən etməkdən, yeni iqtisadi şəraitdə dövlət sosial təminat və məcburi dövlət sosial sığortası sisteminə uyğun sosial təminatın hüquqi tənzimetmə prinsiplərini, vətəndaşların həm sosial sığorta, həm də dövlət sosial sistemlərində təminatın səviyyəsini və bütövlükdə sosial təminat sistemini tənzim edən normativ aktları sistemləşdirməkdən, eyni zamanda bazar iqtisadiyyatı şəraitində respublikamızda məcburi dövlət sosial sığortasının və dövlət sosial təminat sisteminin gələcək inkişaf perspektivlərini müəyyənləşdirməkdən ibarətdir.

Müasir hüquq elmində sosial təminat hüququnun predmeti, onun ekspansiyası Azərbaycan Respublikasının hüquq sistemində sosial təminat hüququnun yeri ilə bağlı məsələnin həll edilməsi, onun digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsi kimi problemlərə dair müxtəlif baxışların meydana çıxması yalnız hüquqşünas alimlərin məhdud dairəsinin maraqlarını ifadə etmir.

Sosial təminat hüququ bir hüquq sahəsi kimi dövlətdə baş verən mikro və makro iqtisadi proseslərlə sıx surətdə bağlı olmaqla, bütün ölkə əhalisinin ümumi rifah halının səviyyəsinə, cəmiyyətdəki sosial proseslərə və vəziyyətə bilavasitə təsir göstərir. Buna görə də ilk baxışda sosial təminat hüququnun tənzimetmə predmetinin sırf nəzəri məsələlərinin nəzərdən keçirilməsi müasir şəraitdə birinci dərəcəli vəzifələrdən biri olmaqla, mühüm elmi-nəzəri və hüquqtətbiqetmə fəaliyyəti baxımından həm də praktiki əhəmiyyət kəsb edir.

Hər bir hüquq sahəsi müəyyən prinsiplər əsasında formalaşır, bir qayda olaraq, tənzim edilən ictimai münasibətlərə təsir göstərilməsi üzrə özünəməxsus üsul və vasitələr sisteminə malik olur, müəyyən funksiyalar yerinə yetirir. Hüquq elmində hüquqi tənzimetmə predmeti, yəni eynicinsli ictimai münasibətlərin müəyyən qrupu ənənəvi olaraq hüquq sahəsinin müstəqilliyinin əsas meyarlarından biri kimi nəzərdən keçirilir. Lakin həm nəzəriyyədə, həm də praktikada meydana çıxan bu və ya digər ictimai münasibətlərin konkret hüquq sahələrinin hüquqi tənzimetmə predmetinə aid edilməsi ilə bağlı ciddi çətinliklər yaranır. Bu zaman adekvat hüquqi təsir vasitələrinin seçilməsində səhvə yol verilməsi yaxşı halda arzu olunan nəticəyə nail olmağa imkan vermir, pis halda isə müxtəlif mənfi nəticələrə səbəb olur. Sahəvi tənzimetmənin dəqiq şəkildə müəyyən edilməsi müxtəlif maraqların optimal uzlaşmasına nail olmağa, sosial, iqtisadi və siyasi xarakterli məsələlərin uğurla həll edilməsinə imkan verir.

Hazırda Azərbaycan Respublikasında sərbəst bazar iqtisadiyyatının bərqərar olması sosial təminat hüququ sahəsində münasibətlərin adekvat, eyni zamanda, son dərəcə ehtiyatlı və çevik hüquqi tənzimlənməsini tələb edir. Bu vəzifənin mühüm əhəmiyyəti iqtisadi və sosial maraqlar arasında, habelə dövlətin və fərdin maraqları arasında balansın qorunub saxlanılmasının zəruriliyi ilə müəyyən olunur. Göstərilən vəzifənin uğurlu həlli xeyli dərəcədə bu və ya digər hüquqi vasitələrin nə dərəcədə düzgün seçilib istifadə olunmasından, bu və ya digər qrup ictimai münasibətlərin hüquqi tənzimlənməsinə hansı hüquqtənzimetmə mexanizmlərinin təsir göstərməsindən asılıdır.

Özünü hüquqi və demokratik dövlət elan etmiş Azərbaycan Respublikası həm də iri miqyaslı sosial islahatlar həyata keçirməklə sosial yönümlü dövlət olması missiyasını da öz üzərinə götürmüşdür. Bu baxımdan müasir dövr dövlətin sosial siyasətini özündə əks etdirən sosial təminat qanunvericiliyinin geniş şəkildə təhlilini tələb edir. Belə ki, son dövrlər sosial təminat hüquq normalarının tənzim etdiyi və sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərə dair müəyyən hüquqi konsepsiyaların və yanaşmaların formalaşması

həmin məsələləri yeni mövqedən və fərqli aspektdən araşdırmağı zəruri edir. Hazırda müstəqil respublikamızda sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin yeni sosial təminat qanunvericiliyi əsasında müəyyən edilməsi məsələsi ən aktual və elmi cəhətdən ciddi araşdırmaya ehtiyacı olan problemlərdən biri kimi çıxış edir. Ona görə ki, sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin dairəsi müəyyən edilmədən insanın əsas hüquqlarından olan sosial təminat hüququnun tam şəkildə reallaşdırılmasına və sosial təminat qanunvericiliyinin praktikada səmərəli şəkildə tətbiqinə nail olmaq olmaz.

Bütün bunlar həmin mövzunun respublikamız üçün olduqca aktual olduğunu şərtləndirir və buna görə də bu problem xüsusi nəzəri və praktiki maraq doğurur. Bununla yanaşı, qeyd etmək lazımdır ki, həmin mövzu Azərbaycan Respublikasının hüquqşünas alimləri tərəfindən kompleks şəkildə tədqiq olunmayıb və məhz buna görə də bu tədqiqat işi respublikamızda sosial təminat sisteminin gələcək perspektivlərinin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında mövcud olan iqtisadi şərait sosial təminat hüququnun predmetinə dair məsələlərin sistemli hüquqi təhlilinin aparılması zamanı bir sıra aspektlərin nəzərə alınmasını tələb edir. Nəsillərin həmrəyliyi vasitəsi və əmək qabiliyyətini itirdikdən sonrakı dövrdə əsas yaşamaq mənbəyi kimi çıxış edən sosial təminat növlərinin ikili mahiyyəti, sosial sığorta fenomeninin tədqiqinə xüsusi tələblər irəli sürür və Azərbaycan Respublikasında formalaşan bazar münasibətləri şəraitində sosial sığorta sisteminin konseptual əsaslarını müəyyən edir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasında formalaşmış məcburi dövlət sosial sığorta sistemində və dövlət sosial təminat sistemində formalaşmış olan münasibətlərin sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlər kimi təhlili problemlərinə həsr olunan vahid bir tədqiqat işi kimi araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, sosial təminat hüququnun predmetinin sistemli-hüquqi təhlilinə ilk dəfə olaraq kompleks şəkildə yanaşma onun mahiyyətini və cəmiyyət üçün əhəmiyyətini tam şəkildə açmağa imkan verəcəkdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlər təşkil edir. Tədqiqatın predmetini isə müasir dövrdə formalaşmış yeni yanaşmalar və konsepsiyalar əsasında sosial təminat hüququnun predmeti ilə bağlı nəzəri və təcrübi problemlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini sistemli hüquqi təhlil əsasında sosial təminat hüququnun predmeti ilə bağlı məsələlərin kompleks şəkildə tədqiq edilməsindən, habelə qüvvədə olan sosial təminat hüququ üzrə qanunvericiliyin təkmilləşdirilməsi üçün konkret təklif və tövsiyələrin verilməsindən ibarətdir.

Qeyd edilən məqsədlərə nail olmaq üçün dissertasiya işində **aşağıdakı vəzifələr** müəyyən edilmişdir:

- Qüvvədə olan qanunvericiliyə əsaslanaraq sosial təminat hüququnun anlayışını vermək;
- Hüquqi kateqoriya kimi sosial təminatın funksiyaları baxımından sosial təminat hüququnun predmetinə funksional yanaşmanı müəyyənləşdirmək və müasir dövrə uyğun yeni funksiyaların məzmununu araşdırmaq;
- Sosial təminat hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsini göstərməklə onun hüquq elmləri sistemində yerini müəyyənləşdirmək;
- Sosial təminat hüququnun sosial hüquqla qarşılıqlı əlaqəsini göstərmək;
- Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin xüsusiyyətlərini yeni aspektdən göstərməklə həmin münasibətlərin dairəsini müəyyənləşdirmək;
- Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin mahiyyətini açıqlamaqla onları təhlil etmək;
- Müasir dövrdə sosial təminat hüququnun predmetinə dair müasir yanaşmaları təhlil etməklə bu hüquq sahəsinin ekspansiyasını göstərmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Dissertasiya işinin yazılması prosesində müəllif tərəfindən

formal-məntiqi, sistemli-struktur təhlil, hüquqi təzahürlərə kompleks yanaşma, elmi və praktik materialların ümumiləşdirilməsi və müqayisəli hüquqşünaslıq kimi metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aparılmış müqayisəli-hüquqi təhlillər əsasında mühüm elmi-nəzəri və praktiki əhəmiyyətə malik bir sıra təkliflər və tövsiyələr irəli sürülmüşdür ki, onların da əksəriyyəti sosial təminat hüququnun təkmilləşdirilməsinə xidmət edir.

1. Hüququn müstəqil sahəsi kimi sosial təminat hüququna aşağıdakı kimi anlayış verilir: Sosial təminat hüququ sosial təminat sistemi üzrə pul ödəmələrinin və sosial təminatın natural növlərinin dövlət orqanları tərəfindən fiziki şəxslərə təqdim edilməsi ilə əlaqədar həmin orqanlarla fiziki şəxslər (yaxud onların ailəsi) arasında sosial təminata olan konstitusion hüquqların reallaşdırılması və müdafiəsi üzrə yaranan ictimai münasibətləri tənzim edən hüquq normalarının məcmusudur.

2. Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin müasir dövr üçün aşağıdakı xarakterik xüsusiyyətləri fərqləndirilir:

- bu münasibətlər iqtisadi məzmuna malik olmaqla məqsədli maliyyə vəsaitlərinin bölüşdürülməsi ilə bağlıdır;
- bu münasibətlərin xüsusi subyektləri kimi sosial əhəmiyyətli hallardan asılı olaraq sosial müdafiəyə ehtiyacı olan fiziki şəxslər (əlilliyi olan şəxslər, ahıllar, şəhid ailəsi üzvləri, məcburi köçkünlər, aztəminatlı ailələr və s.) və əsasən vəzifəsi olan tərəf kimi çıxış edən dövlət orqanları (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra qısaca olaraq AR ƏƏSMN adlandırılacaqdır), DOST Agentliyi, Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və s.) çıxış edir;
- bu münasibətlərin obyekti kimi sosial müdafiəyə ehtiyacı olan şəxslərin sosial rifahı çıxış edir;
- bu münasibətlər insanın iradəsindən asılı olmayan və dövlət tərəfindən sosial əhəmiyyətli hal kimi tanınan spesifik hüquqi faktlar əsasında yaranır, dəyişir və xitam olunur;

- bu münasibətləri tənzim edən hüquq normaları əsasən mərkəzləşdirilmiş qaydada qanunvericilik səviyyəsində təsbit olunur.

3. Azərbaycan Respublikasında müasir dövrdə qüvvədə olan sosial təminat qanunvericiliyi baxımından sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin dairəsi aşağıdakı kimi müəyyən edilir:

1) sosial təminatın pul formasında təqdim edilən növləri (pensiya, sosial müavinət, təqaüd və s.) ilə əlaqədar yaranan münasibətlər;

2) natura formasında təqdim edilən sosial təminat növləri (tibbi yardım və müalicə, sanatoriya-kurort müalicəsi, pulsuz və ya güzəştli dərman yardımı, tam və yarımstasionar sosial xidmət, uşaqların uşaq müəssisələrində saxlanılması, əlilliyi olan şəxslərin peşə hazırlığı və məşğulluğunun təmini və s.) ilə əlaqədar yaranan münasibətlər;

3) sosial təminat növlərinin təqdim edilməsi ilə əlaqədar yaranan prosedur və prosessual xarakterli münasibətlər. Bu münasibətlər isə sosial təminatın müvafiq növlərinin təqdim edilməsi üçün zəruri olan hüquqi faktların müəyyən edilməsi, sosial təminatın bu və ya digər növünə olan hüququn reallaşdırılması, pozulmuş hüquqların inzibati və məhkəmə qaydasında müdafiəsi ilə bağlıdır;

4) dövlət sosial sifarişləri əsasında sosial xidmətlərin qeyri-hökumət təşkilatları tərəfindən göstərilməsi üzrə münasibətlər;

5) sosial qanunvericilikdə birbaşa təsbit edilmiş məsuliyyətlə bağlı yaranan münasibətlər.

4. Hüquq ədəbiyyatında xeyriyyəçilik fəaliyyəti ilə bağlı münasibətlərin sosial təminat hüququ ilə əlaqədar olması kimi fikirlər təhlil edilməklə əsaslandırılır ki, Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra qısaca olaraq AR Konstitusiyası adlandırılacaqdır) 38-ci maddəsində adının çəkilməsinə baxmayaraq, Azərbaycan Respublikasında xeyriyyəçilik fəaliyyəti ilə əlaqədar xüsusi qanun qəbul edilmədiyinə və bu baxımdan onun hüquqi təbiətini müəyyən etmək mümkün olmadığına görə bu sahədə yaranan münasibətlərin sosial təminat hüququnun predmetinə daxil edilməsi mübahisəlidir. Lakin xeyriyyəçilik fəaliyyəti sahəsində yaranan münasibətlər subyekti, obyekti və tənzimləmə səviyyəsi baxımından

sosial təminat hüquq münasibətlərinin spesifik xüsusiyyətləri ilə nisbətən eyniyyət təşkil etməsi baxımından və həmin münasibətləri tənzimləyən qanunvericilik aktı qəbul edildikdən sonra xeyriyyəçilik fəaliyyəti sahəsində yaranan münasibətlərin də sosial təminat hüququnun predmetinə daxil edilməsi perspektivləri müzakirə predmeti ola bilər.

5. Sosial təminat hüququnun predmetinə daxil olan prosedur və prosessual xarakterli münasibətlərin aşağıdakı kimi təsnifləşdirilməsi əsaslandırılır: a) sosial təminat sistemi üzrə prosedur xarakterli münasibətlərə daxildir: sosial təminatla bağlı hüquqi faktların müəyyən edilməsi üzrə münasibətlər (məsələn, əlilliyin müəyyən edilməsi, müharibə veteranı kimi tanınması, sosial sığorta stajının məhkəmə qaydasında sübut edilməsi və s.); sosial təminatın bu və ya digər növünün əldə edilməsi üçün müraciətlə bağlı münasibətlər (məsələn, əmək pensiyası və yaxud sosial müavinət almaq üçün müvafiq dövlət orqanına sənədlərin təqdim edilməsi və s.); müvafiq dövlət orqanlarının sosial təminatın növlərini təqdim etməsi üzrə münasibətlər. b) sosial təminat sistemi üzrə prosessual hüquq münasibətlərinə daxildir: sosial təminat hüquqlarının pozulması ilə bağlı mübahisələrin inzibati qaydada həll edilməsi ilə bağlı münasibətlər; sosial təminat hüquqlarının pozulması ilə bağlı mübahisələrin məhkəmə qaydasında həll edilməsi ilə bağlı münasibətlər.

6. Sosial təminat hüququnun predmeti şəxsin maddi vəziyyətinin bərpa olunması, habelə sosial inteqrasiya, şəxsin sosial statusunun bərpa olunması yolu ilə sosial sığorta hadisələrinin nəticələrinin aradan qaldırılması və ya minimuma endirilməsi məqsədilə sosial nemətlərin (sosial sığorta və qeyri-sığorta xarakterli nemətlərin) təqdim edilməsi ilə bağlı sosial təminat orqanları (dövlət və dövlət tərəfindən tanınmış qeyri-dövlət təşkilatları) ilə fiziki şəxslər arasında yaranan sosial-öhdəlik xarakterli münasibətlər kimi xarakterizə edilir. Bu hüquq sahəsinin inkişaf dialektikasına əsaslanmaqla, onun kompleks xarakter daşıması, kompleks hüquq sahəsi kimi əvvəlcə sistemləşdirilməsi, sonra isə məcəlləşdirilməsi zərurəti irəli sürülür.

7. Sosial təminat sahəsində hüquqi tənzimetmənin ciddi şəkildə mərkəzləşdirilməsi və imperativliyi xarakterik olduğu üçün sosial təminat hüququ əsasən ümumi hüquq sahəsinə aid edilir. Eyni zamanda əsaslandırılır ki, müasir dövrdə sosial təminat qanunvericiliyində təsbit edilən dispozitiv xarakterli normalar bu hüquq sahəsində xüsusi hüquq elementlərinin mövcudluğunu göstərir.

8. Tədqiqat işində gələcəkdə yeni bir kompleks hüquq sahəsinin, predmetini cəmiyyətin bütövlükdə sosial sisteminin təşkil etdiyi və hazırda mövcud olan sosial təminat hüququ sahəsi çərçivəsində başlanmış ciddi transformasiyaların nəticəsi kimi sosial hüquq sahəsinin yaranması təklifi irəli sürülür. Müəllif tərəfindən sosial hüquq sosial sığorta və sosial təminat təşkilati-hüquqi formaları çərçivəsində insanın sosial müdafiəsinin təmin edilməsinə obyektiv tələbat doğuran sosial risklərin yarandığı hallarda maddi nemətlərin cəmiyyət üzvlərinə təqdim edilməsi ilə əlaqədar münasibətləri tənzimləyən hüquq normalarının məcmusu kimi xarakterizə olunur. Təklif edilən yeni sosial hüquq sahəsində hüquq yarımsahəsi əlamətlərinə malik iki nisbətən müstəqil yarımsistem - sosial sığorta və sosial təminat (onun tərkibinə qeyri-sığorta əsasında pensiya təminatı, sosial yardım, sosial xidmət və s. daxil edilməklə) fərqləndirilir.

9. Sosial təminat hüquq sahəsinin strukturu məsələsi ilə bağlı hüquq ədəbiyyatında mövcud olan yanaşmaları ümumiləşdirərək müəllif qəbul edilməsi təklif edilən Sosial Təminat Məcəlləsinin Ümumi və Xüsusi hissəsinə hökmən daxil edilməli olan bir sıra institutları (bölmələri) fərqləndirir.

10. Dövlət sosial sifarişləri əsasında qeyri-hökumət təşkilatları tərəfindən sosial xidmətlərin göstərilməsi üzrə münasibətlər sosial təminat hüququnun predmetinə daxil olan yeni münasibət olduğuna görə bu sahədə formalaşmış olan təcrübə əsasında mövcud problemlərin aradan qaldırılması üçün müəyyən təkliflərin həyata keçirilməsi əsaslandırılır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, o, sosial təminat hüququnun predmetinin sistemli hüquqi təhlili problemlərinin nəzəri

və praktiki aspektlərinin kompleks şəkildə ətraflı tədqiqinə həsr olunmuş ilk kompleks monoqrafik əsərdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada öz əksini tapan nəzəri nəticələr və təkliflərdən tədris prosesində və bu problemlərə dair elmi tədqiqatların aparılmasında, habelə hüquqyaratma fəaliyyətində və sosial təminat qanunvericiliyinin gələcəkdə təkmilləşdirilməsində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyada alınan nəticələr və yeniliklər tədqiqatın mövzusu üzrə Azərbaycanın və digər xarici ölkələrin nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus dillərində) elmi məqalələr şəklində dərc edilmiş, beynəlxalq və respublika əhəmiyyətli konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Əmək və ekologiya hüququ" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 7 paraqrafı əhatə edən 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin Girişi 19783, Əsas məzmunu 236471, Nəticəsi 19911, istifadə edilmiş ədəbiyyat siyahısı 25394 işarə olmaqla, ümumilikdə 276165 işarədən ibarətdir.

## İŞİN MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın predmeti, obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsasları, müdafiəyə çıxarılan əsas məsələlər, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilir, tədqiqatın nəticələrinin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Hüququn müstəqil sahəsi kimi sosial təminat hüququnun ümumi xarakteristikası"** adlanır və 3 paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** sosial təminat hüququnun anlayışı araşdırılır. İddiaçı sosial təminat hüququnun anlayışı ilə bağlı sosial təminat hüququ üzrə elmi və tədris ədəbiyyatında mövcud olan yanaşmaları tədqiq edərək qeyd edir ki, hər bir ölkədə həyata keçirilən iqtisadi və siyasi islahatlar sosial təminat sferasından da yan keçmir və müstəqil hüquq sahəsi kimi sosial təminat hüququnun, o cümlədən sosial təminat qanunvericiliyinin inkişafına öz təsirini göstərir. Hüquq ədəbiyyatında sosial təminat hüququna verilən müxtəlif anlayışlar təhlil edilərək sosial təminat hüququna sosial təminat sistemi üzrə pul ödəmələrinin və sosial təminatın natural növlərinin dövlət orqanları tərəfindən fiziki şəxslərə təqdim edilməsi ilə əlaqədar həmin orqanlarla fiziki şəxslər (yaxud onların ailəsi) arasında sosial təminata olan konstitusion hüquqların reallaşdırılması və müdafiəsi üzrə yaranan ictimai münasibətləri tənzim edən hüquq normalarının məcmusu kimi anlayış verilmişdir.

İkinci paraqraf **"Sosial təminat hüququnun predmetinə funksional yanaşma"** adlanır**.** Bu paraqrafda göstərilir ki, istənilən hüquq sahəsinin tənzimetmə predmetini daha ətraflı tədqiq etmək üçün onun yerinə yetirdiyi funksiyaları araşdırmaq vacib məsələlərdən biridir. Məhz hüququn funksiyaları vasitəsilə həmin sahənin əsl təbiətini və cəmiyyətdəki rolunu müəyyən etmək mümkündür. Çünki hüquq sahələrinin strukturunun, predmetinin inkişafında, yeni institutlarının formalaşmasında həmin hüquq sahəsinin funksiyaları əhəmiyyətli rol oynayır.

İddiaçı hüquq ədəbiyyatında sosial təminat hüququnun funksiyaları ilə bağlı aparılmış tədqiqatlar və mövcud sosial təminat qanunvericiliyinin təhlili nəticəsində sosial təminatın ənənəvi iqtisadi, istehsal, sosial, siyasi və demoqrafik funksiyaları ilə yanaşı, həyat səviyyəsinin müdafiəsi, informasiya, kompensasiya və ideoloji funksiyalarını fərqləndirərək onların məzmununu açmışdır.

**"Sosial təminat hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsi"** adlanan üçüncü paraqrafda sosial təminat hüququnun əmək hüququ, maliyyə hüququ, mülki hüquq və inzibati hüquqla olan qarşılıqlı əlaqəsi ətraflı araşdırılmışdır. İddiaçı sosial təminat hüququnun tarixən inzibati və əmək hüququndan törədiyini

qeyd edərək, bu hüquq sahələri arasında hələ də qarışıq sahələrarası institutların qalmaqda davam etdiyini xüsusilə vurğulamışdır. Belə institutlara isə məcburi dövlət sosial sığorta institutu, sosial sığorta stajı institutu, sosial xidmət institutu, habelə əlilliyi olan şəxslərə pulsuz mənzil verilməsi üzrə münasibətlər də daxildir.

Aparılmış təhlillər əsasında tədqiqatçı göstərir ki, sosial təminat hüququ elminin predmeti bu hüquq sahəsinin predmetindən əhəmiyyətli dərəcədə genişdir. Müasir dövrdə sosial təminat hüququ yeni konsepsiya və prinsiplər əsasında inkişaf edir, əvvəllər hüquqi tənzimetmə çərçivəsindən kənarda qalan münasibətlər sahəsini əhatə edir. O, bilavasitə bütün ölkə əhalisinin maraqlarına toxunur (pensiyaçıların, işsizlərin, uşaqlı ailələrin, əlilliyi olan şəxslərin və s.).

Bununla yanaşı, iddiaçı tərəfindən sosial təminat hüququnu müstəqil hüquq sahəsi kimi xarakterizə edən əlamətlər təhlil edilmişdir. Qeyd olunmuşdur ki, sosial təminat hüququnun əsas fərqli cəhəti ondan ibarətdir ki, o, sosial təminat sistemi vasitəsilə ümumi daxili məhsulun bölünməsi ilə əlaqədar meydana gələn həm maddi, həm də prosedur-prosessual xarakterli münasibətlərin kompleksidir. Bu zaman ümumi daxili məhsulun bölüşdürülməsi xüsusi subyektlərə – yaşlı vətəndaşlara, əlilliyi olan şəxslərə, uşaqlı ailələrə, aztəminatlı vətəndaşlara maddi təminatın və sosial xidmətin göstərilməsi yolu ilə həyata keçirilir. Buradan da göründüyü kimi, əmək və inzibati hüquq normaları ilə tənzimlənən münasibətlərlə müqayisədə sosial təminat hüquq normaları ilə tənzimlənən münasibətlərin xüsusi subyektləri, obyekti və məzmunu vardır.

Dissertasiya işində həmçinin, mövcud məhkəmə sistemi daxilində sosial təminat məsələləri ilə bağlı hakimlərin ixtisaslaşdırılmasının həyata keçirilməsi ilə bağlı təklif irəli sürülmüşdür. Çünki müasir dövrdə vətəndaşların sosial hüquqlarının ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən müdafiəsinin səmərəliliyinin müəyyən qədər aşağı səviyyədə olması sosial təminat məsələləri ilə bağlı mübahisələrə baxılması üzrə ixtisaslaşdırılmış məhkəmələrin yaradılması məsələsinin aktuallığını artırır. Qeyd olunur ki, belə məhkəmələr bir sıra ölkələrdə mövcuddur və onların fəaliyyəti kifayət qədər yüksək qiymətləndirilir. Bu zaman

mübahisələrə qısa müddət ərzində baxılır, daha sadə proseduralar tətbiq edilir. Belə məhkəmələrin yaradılmasına qədərki zaman ərzində isə mövcud məhkəmə sistemi daxilində hakimlərin ixtisaslaşdırılmasının həyata keçirilməsi imkanının araşdırılması təklif olunur.

Dissertasiya işinin ikinci fəsli **"Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin dairəsi"** adlanır və 2 paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin xüsusiyyətləri təhlil edilərək göstərilir ki, sosial təminat üzrə münasibətlər kompleks xarakter daşısa da eynicinsli deyildirlər. Onların daxilində sosial təyinatlı büdcədənkənar dövlət fondlarının və dövlət büdcəsinin bölüşdürülməsi üzrə münasibətləri də ayırmaq olar. Bu münasibətlərə aiddir: 1) qanunla müəyyən edilmiş yaş həddinə çatma, ailə başçısının itirilməsi, əlillik ilə əlaqədar təminat üzrə münasibətlər; 2) analığa və uşaqlığa maddi kömək, uşaqların saxlanılması və tərbiyəsində ailəyə kömək göstərilməsi üzrə münasibətlər; 3) aztəminatlı şəxslərə ünvanlı dövlət sosial yardımının göstərilməsi üzrə münasibətlər; 4) icbarı tibbi sığorta üzrə pulsuz müalicə və tibbi yardım göstərilməsi üzrə münasibətlər və s.

Aparılmış ümumiləşdirmələr əsasında sosial təminat hüququnun predmetinə sosial təminat sistemi vasitəsilə ümumi daxili məhsulun bölüşdürülməsi ilə bağlı sosial müdafiə orqanları ilə fiziki şəxslər arasında yaranan maddi və prosedur-prosessual xarakterli mürəkkəb kompleks ictimai münasibətlərin daxil edilməsi fikri əsaslandırılmaqla, qeyri-dövlət sosial fondlarının vəsaitlərinin bölüşdürülməsi üzrə ictimai münasibətlərin sosial təminat hüququnun predmetinə daxil olmadığı qeyd olunmuşdur.

Həmçinin, bu paraqrafda hüquqi təzahür kimi alimentasiya münasibətləri barədə hüquq ədəbiyyatında mövcud olan fikirlər geniş şəkildə təhlil edilərək göstərilir ki, "alimentasiya" terminindən respublikamızın sosial təminat qanunvericiliyində heç bir vaxt istifadə olunmamışdır. Lakin sosial təminatın alimentar xarakter daşıması

məsələsi ilə qismən razılaşmaq olar ki, o da onun müəyyən hissəsinin əməklə əlaqədar olmayaraq təqdim edilməsi ilə bağlıdır.

İkinci paraqrafda **sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlər** ayrı-ayrılıqda təhlil edilmişdir. Belə ki, sosial təminat sistemi üzrə pul ödəmələrinin növündən asılı olaraq hüquq münasibətlərinin obyektlərinə əsasən a) pensiya hüquq münasibətləri; b) sosial müavinətlər üzrə hüquq münasibətləri; c) dövlət sosial yardımı və kompensasiya ödəmələri üzrə hüquq münasibətləri; d) təqaüdlər üzrə hüquq münasibətləri şəklində təsnifatının aparılması daha məqsədəmüvafiq hesab edilir.

İddiaçı tərəfindən pensiya hüquq münasibətlərinə qanunla müəyyən edilmiş yaş həddinə çatan vətəndaşların, habelə əlil olmuş və ya ailə başçısını itirmiş, o cümlədən uzun müddət müəyyən növ peşə fəaliyyəti ilə məşğul olan vətəndaşların maddi təminatı ilə bağlı olaraq vətəndaşlarla (bəzən ailə ilə) sosial təminat orqanları arasında pensiyaların təyin edilməsi əsasında yaranan, sosial təminat hüquq normaları ilə tənzim olunan ictimai münasibətlər şəklində anlayış verilmiş və onun subyektlərinə yaşa, əlilliyə görə pensiya alan vətəndaşlar, hərbi qulluqçular, dövlət qulluqçuları və digər şəxslər, ailə başçısını itirməyə görə pensiyanın subyekti kimi bütövlükdə ailə və ya onun əmək qabiliyyətli olmayan üzvləri aid edilmişdir.

İddiaçı göstərir ki,«Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının qanununa görə əmək pensiyasının üç növü - yaşa görə, ailə başçısının itirilməsinə görə, əlilliyə görə pensiya növləri təsbit edilməklə yanaşı, faktiki olaraq bir sıra şəxslər üçün (prokurorluq orqanlarının işçiləri, hərbi qulluqçular və s.) xidmət illərinə görə pensiya nəzərdə tutulmuşdur. Bu baxımdan təklif edilir ki, «Əmək pensiyaları haqqında» AR Qanununa xidmət illərinə görə əmək pensiyalarının pensiya təminatının növü kimi daxil edilməsi məqsədəmüvafiq olardı.

Sosial təminatın “natural” növləri ilə bağlı yaranan münasibətlərə isə aşağıdakılar aid edilir: tibbi yardım və müalicə, pulsuz və ya güzəştli dərman yardımı, sanatoriya-kurort müalicəsi, tam və yarımstasionar sosial xidmət, uşaqların internatlarda və ya uşaq müəssisələrində saxlanması, əlilliyi olan şəxslərin peşə hazırlığı və

işədüzəldilməsi və s. üzrə münasibətlər. Sosial xidmət üzrə hüquq münasibətlərinin isə müxtəlif əsaslar baxımından təsnifatı aparılır, bu münasibətlərin subyektləri fərqləndirilir, obyektləri, məzmunu araşdırılır.

Bu fəsildə sosial təminat hüququnun predmetinə daxil olan prosedur və prosessual xarakterli münasibətlərin də anlayışı verilmiş və təsnifatı aparılmışdır. Belə ki, prosedur hüquq münasibətlərinə bu və ya digər növ sosial təminata olan hüquqların həyata keçirilməsi üçün zəruri olan hüquqi faktların müəyyən edilməsi üzrə, prosessual hüquq münasibətlərinə isə vətəndaşın müvafiq orqanın (vəzifəli şəxsin) hərəkətlərindən (hərəkətsizliyindən) şikayəti ilə bağlı pozulmuş hüquqlarının müdafiəsi üzrə hüquq münasibətləri kimi anlayış verilmişdir.

Dissertasiya işinin üçüncü fəsli "**Müasir dövrdə sosial təminat hüququnun predmetinə dair yeni yanaşmalar"** adlanır və 2 paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** sosial təminat hüquq sahəsinin transformasiyasının bir sıra sosial-iqtisadi faktorlarla bağlı olduğu qeyd edilir. Sosial təminat hüquq sahəsinin yenilənməsi prosesini yalnız sosial təminat hüququnun və sosial qanunvericiliyin daxili inkişafının məntiqi davamı kimi deyil, həm də cəmiyyətdə baş verən müəyyən sosial-iqtisadi dəyişikliklərin qanunauyğun nəticəsi kimi xarakterizə etmək lazımdır.

Sosial təminat hüququnun yeni siması hüquqi tənzimetmənin ümumi və xüsusi başlanğıclarının vəhdəti ilə xarakterizə olunur. Sonuncu sosial sığorta və sosial xidmət münasibətlərinin tənzimlənməsinin müqavilə rejimində, subyektlərin (məcburi dövlət sosial sığortası üzrə fondlar, işəgötürənlər, fərdi sahibkarlar, xüsusi tibb müəssisələri və s.), eyni zamanda sosial ödəmə və xidmətləri əldə edən şəxslərin dairəsinin genişlənməsində daha aydın şəkildə təzahür edir.

İddiaçı hüquqi və sosial yönümlü dövlət kimi Azərbaycan Respublikasının sosial təminat hüququnun subyekti kimi üç əsas funksiyasını fərqləndirir. Birincisi, o, öz üzərinə vətəndaşların ayrı-ayrı kateqoriyalarının dövlət sosial təminatı (dövlət qulluqçularının,

hərbi qulluqçular üçün əlavə pensiya təminatı), aztəminatlı ailələrin uşaqları üçün müavinətlər, işsizlikdən sığorta ödənişi, işsizlərin peşə hazırlığı və s.), habelə dövlət sosial yardımı və sosial xidmət (aztəminatlı şəxslər, ahıllar, əlilliyi olan şəxslər və s.) üzrə ümumi-hüquqi xarakterli öhdəlik götürür. İkincisi, məcburi dövlət sosial sığortasının subyekti qismində çıxış edir. Burada o, həm büdcədənkənar dövlət fondlarının şəxsində sığortaçı funksiyasını yerinə yetirə, həm də sığorta edən rolunda çıxış edə bilər. Üçüncüsü, dövlət vətəndaş cəmiyyəti sistemində sosial əməkdaşlığın müstəqil iştirakçısıdır. Hüquqi, sosial yönümlü dövlət və vətəndaş cəmiyyəti vahid canlı orqanizmin iki hissəsidir. Onların hər birinin digərinə ehtiyacı vardır və hər ikisi insan hüquqlarını (siyasi, sosial-iqtisadi, mədəni və s.) təmin etməlidirlər.

Hüquq elmində «sosial hüquqlar» termininin anlayışı ilə bağlı müxtəlif yanaşmalar və müəlliflərin fikirləri tədqiq edilərək göstərilir ki, hüquqların bu qrupu üçün hər bir fərdin həyati əhəmiyyətli maraqları və tələbatları ilə birbaşa əlaqə, insan və vətəndaşın həyatının müəyyən sosial sahəsinə şamil edilmə, habelə insanın normal həyat fəaliyyətinin ən mühüm faktorlarından biri kimi iqtisadi, yəni maddi ünsürün olması kimi xüsusiyyətlər xarakterikdir. Sosial hüquqlar və azadlıqlar özünəməxsus subyekt və obyektlə şərtlənən insan və vətəndaşların konstitusion hüquq və azadlıqları sistemində müəyyən yer tutur. Sosial hüquqlar hər bir insan üçün minimum iqtisadi təhlükəsizliyi nəzərdə tutur. Qeyd olunanlara əsasən sosial hüquqlara dövlət tərəfindən tanınan və normativ qaydada təsbit edilən, ayrılmaz və hər bir fərdə məxsus olan, insan və vətəndaşların həyatının müəyyən sosial sahəsinə şamil edilən, həyati vacib maddi və mənəvi tələbatları, layiqli həyat səviyyəsini və sosial müdafiəni təmin edən, insan və vətəndaşın cəmiyyətdə sərbəst inkişafına və mövcudluğuna imkan verən insan və vətəndaş hüquq və azadlıqları kompleksi şəklində anlayış verilir.

**İkinci paraqrafda** qeyd edilir ki, "Sosial sığorta haqqında" AR Qanununun qəbul edilməsi ilə sosial təminat sahəsində qanunvericiliyin inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Bu onunla bağlıdır ki, sosial təminat sisteminin formalaşması onun iki

yarımsisteminin - dövlət sosial təminat sisteminin və məcburi dövlət sosial sığorta sisteminin qanunvericilik qaydasında tənzimlənməsini tələb edir. Lakin həmin qanun sosial təminatın yalnız ikinci yarımsistemini tənzim edir. Bu baxımdan sosial sığortanın hər bir ayrıca növü üzrə təminatın tənzimlənməsi üçün artıq yeni qanunların qəbul edilməsi zərurəti vardır. Sosial sığortanın hər bir növünün qanunvericilik qaydasında təsbitindən sonra vahid məcəlləşdirilmiş aktın formalaşması üçün imkan yaranacaqdır. Həmin məcəlləşdirilmiş aktın normaları sosial təminat və sosial sığorta sisteminin maliyyələşdirilməsi, idarə olunması və sığorta olunanların və cəmiyyətin hər bir üzvünün sosial təminatı məsələlərini həll etməklə sosial sığortanı nisbətən müstəqil sistem kimi təsbit edə bilər.

Sosial Təminat Məcəlləsinin qəbul edilməsi ilə bağlı hüquq ədəbiyyatında mövcud olan fikirlər təhlil edilərək Məcəllənin Ümumi hissəsinə hökmən daxil edilməli olan bir sıra institutlar (bölmələr) fərqləndirilmişdir. Bununla yanaşı, Məcəllənin xüsusi hissəsinin strukturunun sosial təminatın növləri üzrə qurulmasının daha səmərəli olacağı fikri əsaslandırılmışdır. Birinci bölmə pensiya təminatı münasibətlərini, ikinci bölmə sosial müavinətlərlə təminat üzrə münasibətləri əhatə etməlidir və s.

Bu fəsildə sosial sifarişlər əsasında qeyri-hökumət təşkilatları tərəfindən sosial xidmətlərin göstərilməsi sahəsində formalaşmış olan təcrübə əsasında mövcud problemlər və onların aradan qaldırılması perspektivləri də təsnifləşdirilmişdir.

Həmçinin, vətəndaşların AR Konstitusiyası ilə təsbit olunmuş sosial hüquqlarının realizə olunmasına təminat verməsi baxımından sosial təminat hüququnda hüquqi məsuliyyətlə bağlı normaların sosial qanunvericilikdə dəqiq şəkildə təsbit edilməsinin zəruriliyi əsaslandırılmışdır.

Dissertasiyanın **Nəticə hissəsində** aparılmış araşdırmaların yekunu olan təklif və nəticələr göstərilmişdir:

1. Sosial təminat hüququ dedikdə, sosial müdafiə sistemi əsasında qanunvericilikdə təsbit olunmuş qaydada və məbləğdə maddi ödəmələrin, tibbi və dərman yardımının, müxtəlif sosial xidmətlərin və güzəştlərin səlahiyyətli dövlət orqanları tərəfindən cəmiyyət

üzvlərinə təqdim edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərin, habelə insanların sosial təminata olan konstitusion hüquqlarının reallaşdırılması və müdafiəsi üzrə münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.

2. Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin müasir dövr üçün aşağıdakı xarakterik xüsusiyyətlərini fərqləndirmək olar:

- bu münasibətlər iqtisadi məzmuna malik olmaqla maliyyə vəsaitlərinin bölüşdürülməsi ilə bağlıdır;
- bu münasibətlərin xüsusi subyektləri kimi sosial əhəmiyyətli hallardan asılı olaraq sosial müdafiəyə ehtiyacı olan fiziki şəxslər (əlilliyi olan şəxslər, ahıllar, şəhid ailəsi üzvləri, məcburi köçkünlər, aztəminatlı ailələr və.s) və əsasən vəzifəsi olan tərəf kimi çıxış edən dövlət orqanları (AR ƏƏSMN, DOST Agentliyi, Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və s.) çıxış edir;
- bu münasibətlərin obyekti kimi sosial müdafiəyə ehtiyacı olan şəxslərin sosial rifahı çıxış edir;
- bu münasibətlər insanın iradəsindən asılı olmayan və dövlət tərəfindən sosial əhəmiyyətli hal kimi tanınan spesifik hüquqi faktlar əsasında yaranır, dəyişir və xitam olunur;
- bu münasibətləri tənzim edən hüquq normaları əsasən mərkəzləşdirilmiş qaydada qanunvericilik səviyyəsində təsbit olunur.

Müasir dövrdə sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin dairəsini aşağıdakı kimi göstərmək olar:

- sosial təminatın pul formasında təqdim edilən növləri ilə əlaqədar yaranan münasibətlər;
- natura formasında təqdim edilən sosial təminat növləri ilə əlaqədar yaranan münasibətlər;
- sosial təminat növlərinin təqdim edilməsi ilə əlaqədar yaranan prosedur və prosessual xarakterli münasibətlər;
- dövlət sosial sifarişləri əsasında sosial xidmətlərin qeyri-hökumət təşkilatları tərəfindən göstərilməsi üzrə münasibətlər.
- sosial qanunvericilikdə birbaşa təsbit edilmiş məsuliyyətlə bağlı yaranan münasibətlər.

3. AR Konstitusiyasının 38-ci maddəsində xeyriyyəçilik fəaliyyəti sosial təminatın növü kimi təsbit edilmişdir. Belə ki, həmin maddənin beşinci hissəsinə görə dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır. Artıq hüquq ədəbiyyatında xeyriyyəçilik fəaliyyəti ilə bağlı münasibətlərin sosial təminat hüququ ilə əlaqədar olması kimi fikirlər də mövcuddur. Azərbaycan Respublikasında xeyriyyəçilik fəaliyyəti ilə əlaqədar xüsusi qanun qəbul edilmədiyinə və bu baxımdan onun hüquqi təbiətini müəyyən etmək mümkün olmadığına görə bu sahədə yaranan münasibətlərin sosial təminat hüququnun predmetinə daxil edilməsi yolverilməzdir.

Lakin xeyriyyəçilik fəaliyyəti sahəsində yaranan münasibətlər subyekti, obyekti və tənzimləmə səviyyəsi baxımından sosial təminat hüquq münasibətlərinin spesifik xüsusiyyətləri ilə nisbətən eyniyyət təşkil etməsi baxımından və həmin münasibətləri tənzimləyən qanunvericilik aktı qəbul edildikdən sonra xeyriyyəçilik fəaliyyəti sahəsində yaranan münasibətlərin də sosial təminat hüququnun predmetinə daxil edilməsi perspektivləri müzakirə predmeti ola bilər.

4. Sosial təminat hüququnun predmetinə daxil olan prosedur və prosessual xarakterli münasibətlərin təsnifatının aşağıdakı qaydada aparılması məqsədəuyğundur:

a) sosial təminat sistemi üzrə prosedur xarakterli münasibətlərə daxildir:

- sosial təminatla bağlı hüquqi faktların müəyyən edilməsi üzrə münasibətlər (məsələn, əlilliyin müəyyən edilməsi, müharibə veteranı kimi tanınması və s.);
- sosial təminatın bu və ya digər növünün əldə edilməsi üçün müraciətlə bağlı münasibətlər (məsələn, əmək pensiyası və yaxud sosial müavinət almaq üçün müvafiq dövlət orqanına sənədlərin təqdim edilməsi);
- müvafiq dövlət orqanlarının sosial təminatın növlərini təqdim etməsi üzrə münasibətlər.

b) sosial təminat sistemi üzrə prosessual hüquq münasibətlərinə isə sosial təminat hüquqlarının pozulması ilə bağlı

mübahisələrin inzibati və məhkəmə qaydasında həll edilməsi ilə bağlı münasibətlər daxildir:

5. Sosial təminat hüququnun predmetini təşkil edən sosial təminat sistemi üzrə münasibətlər özünün hüquqi təbiətinə görə maddi xarakterli bölüşdürücü münasibətlərdir. Eyni zamanda sosial təminat hüququnun predmetini şəxsin maddi vəziyyətinin bərpa olunması, habelə sosial inteqrasiya, şəxsin sosial statusunun bərpa olunması yolu ilə sosial sığorta hadisələrinin nəticələrinin aradan qaldırılması və ya minimuma endirilməsi məqsədləri ilə sosial nemətlərin təqdim edilməsi ilə bağlı sosial təminat orqanları ilə fiziki şəxslər arasında yaranan sosial-öhdəlik xarakterli münasibətlər təşkil edir. Digər hüquq sahələri kimi sosial təminat hüququnun da predmetinə müəyyən dərəcədə qeyri-maddi (prosedur və prosessual) xarakterli münasibətlər də daxildir. Onlar maddi münasibətlərin yaranmasını və mövcud olmasını şərtləndirir, onların normal fəaliyyətini və mühafizəsini təmin edir.

Fikrimizcə, sosial təminat hüquq nəzəriyyəsində bu hüquq sahəsinin gələcək perspektivləri artıq müəyyən edilməlidir. Artıq sosial təminat hüququ sırf ümumi hüquq sahəsi hesab edilməsə də, bu hüquq sahəsi hər bir halda bölüşdürücü xarakter daşıyan münasibətləri tənzim edir, ona görə də bu hüquq münasibətlərinin məzmunu dövlətin özü tərəfindən müəyyənləşdirilir və tərəflərin sazişinə əsasən dəyişdirilə bilməz.

6. Sosial təminat hüququnda ümumi hüquq sahələrində olduğu kimi hüquqi tənzimetmənin mərkəzləşdirilməsi və imperativliyi əlaməti mövcuddur və bu münasibətlərin bir tərəfi qismində həmişə dövlət çıxış edir. Lakin müasir inkişaf dövründə biz sosial təminat hüququnda xüsusi hüququn mühüm özünəməxsus əlaməti olan mərkəzləşdirilmiş və lokal tənzimetmənin, normativ və müqavilə qaydasında tənzimetmənin uzlaşmasının da şahidi oluruq. Deməli, sosial təminat hüququnda hər iki sistemin xüsusiyyətləri uzlaşmış şəkildə eyni anda mövcuddur.

Müasir dövrdə sosial təminat qanunvericiliyində təsbit edilən normaların imperativ və dispozitiv xarakterə malik olması baxımdan sosial təminat hüququnu yalnız ümumi və ya xüsusi hüquq sahəsi kimi

göstərmək olmaz. Bu sahədə hər iki növün əlamətləri mövcuddur. Hüquq nəzəriyyəsində formalaşmış fikirlər əsasında demək mümkündür ki, hüquqda ümumi və xüsusi hüququn elementlərinin uzlaşması, bir sözlə qarışıq hüquq institutlarının olduğu nəzərə çarpır.

7. Hüquqi kateqoriya kimi sosial təminatın funksiyalarının təhlili bu hüquq sahəsinin predmetinə daxil olan münasibətlərin dairəsinin daha dəqiq şəkildə müəyyən edilməsində mühüm rol oynayır. Hüquq ədəbiyyatında sosial təminat hüququnun funksiyaları ilə bağlı aparılmış tədqiqatlar və mövcud sosial təminat qanunvericiliyinin təhlili nəticəsində sosial təminatın ənənəvi iqtisadi, istehsal, sosial, siyasi və demoqrafik funksiyaları ilə yanaşı, həyat səviyyəsinin müdafiəsi, informasiya, kompensasiya və ideoloji funksiyalarını da fərqləndirmək olar. Müasir bazar iqtisadiyyatı şəraitində sosial təminat sahəsində münasibətlərin dinamik inkişafı cəmiyyətdə orta təbəqənin kifayət qədər geniş şəkildə formalaşması, həyat səviyyəsinin müxtəlif olması sosial təminat hüququnun həyat səviyyəsinin müdafiəsi funksiyasını fərqləndirməyə imkan verir. Bu funksiya özündə əmək qabiliyyəti olmayan cəmiyyət üzvlərinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin məcmusunu əks etdirir. Sosial təminatın informasiya funksiyası vətəndaşların sosial təminat sahəsində hüquqları, sosial təminatın növləri və onların əldə edilməsi qaydaları barədə maarifləndirilməsi ilə bğlı məsələləri özündə əks etdirir. Sosial təminatın kompensasiya funksiyası dövlət tərəfindən sosial əhəmiyyətli hesab edilən hallarda itirilmiş əmək haqlarının və gəlirlərin və ya əlavə xərclərin əvəzinin ödənilməsinə yönəlmiş təminat formaları ilə bağlıdır. Sosial təminatın ideoloji funksiyası isə sosial təminat və ideologiya arasındakı münasibətlə bağlı olub, daha səmərəli sosial siyasət həyata keçirən dövlətə inamı özündə əks etdirir.

8. Sosial təminat hüququ əsas insan hüquqlarından biri olmaqla hər bir şəxsi doğulduğu andan ömrünün sonuna kimi müşayiət edir. Bu səbəbdən də hər bir şəxs sosial təminat hüququ normalarının əksəriyyətini bilməlidir ki, ehtiyac yarandıqda ona ünvanlanmış sosial müdafiədən vaxtında istifadə etsin və öz hüquqlarını düzgün müdafiə edə bilsin. Xüsusilə də hüquqşünasların, o cümlədən hər bir

müəssisənin insan resursları və hüquq xidmətinin əməkdaşlarının bu hüquq normalarını ətraflı və dərindən bilmələri vacibdir. Çünki, əksər hallarda sosial təminatın bu və ya digər növünə olan hüquq insanın əmək fəaliyyəti ilə əlaqədar olur və hər bir müəssisədə işçilərin bilavasitə iş yeri üzrə həyata keçirilir.

Uzun illər ərzində "Hüquqşünaslıq" ixtisası üzrə dövlət təhsil standartlarına əsasən sosial təminat hüququ məcburi fənn kimi tədris edilsə də, təəssüflər olsun ki, AR Təhsil Nazirliyinin F-363 nömrəli 07.08.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali təhsilinin) ixtisas üzrə təhsil proqramı"na əsasən bu fənn artıq dövlət standartlarından çıxardılmış və ali hüquq təhsili verən təhsil müəssisələrinin müəyyən etdiyi halda seçmə fənn kimi onun tədrisi nəzərdə tutulmuşdur. Fikrimizcə, hər bir şəxsi bütün həyatı boyunca izləyən sosial təminat hüququnun effektiv təmini və müdafiəsi, hüquqşünasların sosial təminat qanunvericiliyini daha geniş şəkildə mənimsəmələri, habelə vətəndaşların məhkəmə müdafiəsi və ixtisaslaşmış hüquqi yardım almaq hüquqlarından səmərəli şəkildə istifadə edə bilmələri üçün sosial təminat hüququnun ali təhsil müəssisələrində tədrisi daha da təkmilləşdirilməli və o, dövlət təhsil standartlarında məcburi fənn kimi təsdiq edilməlidir.

9. Sosial təminat hüququna dair yeni yanaşmalardan biri kimi predmetini cəmiyyətin bütövlükdə sosial sisteminin təşkil etdiyi yeni kompleks hüquq sahəsinin - sosial hüquq sahəsinin yaranması çıxış edir. Müasir sosial təminat hüququ sahəsi çərçivəsində başlanmış ciddi transformasiyaların nəticəsi kimi yaranacağı gözlənilən yeni sosial hüquq sahəsində iki nisbətən müstəqil yarımsistem formalaşacaqdır: sosial sığorta və sosial təminat.

Sosial hüquqlar insanı layiqli həyat səviyyəsi, sosial müdafiə ilə, həmçinin dövlət tərəfindən hüquq normalarında təsbit edilmiş hüquqi təminatlarla təmin edir. Buna görə də sosial hüququ insanların sosial hüquqlarını tənzimləyən ayrı-ayrı hüquq sahələrinə məxsus normalardan ibarət nizamsız sistem kimi qəbul etmək məqsədəmüvafiqdir. Burada söhbət əmək, mülki, tibb, təhsil, mənzil və s. sahələrdəki hüquqlardan gedir. Fikrimizcə, formalaşmaqda olan bu kompleks sahəni hələ sosial hüquq deyil, sosial təminat hüququ

kimi qəbul etmək daha məqsədəuyğun olardı. Çünki sosial hüquq sahəsinin formalaşması ilə bağlı gətirilən dəlillər tamamilə inandırıcı səslənmir və sahəvi hüquq elmləri arasında sərhədlərin pozulmasına şərait yaradır. Belə ki, hüquq nəzəriyyəsində müstəqil hüquq sahəsinin hamı tərəfindən qəbul edilən əlamətlərini (məsələn, hüquqi tənzimetmə predmetinin, metodunun, prinsiplərinin olması) əsas götürsək, "Sosial hüquq"un bu tələblərə cavab vermədiyini görəcəyik. Bildiyimiz kimi, hal-hazırda "Sosial iş" ixtisası üzrə tələbə hazırlığı həyata keçirilir və həmin tələbələr üçün "Sosial hüquq" adlı kompleks tədris fənninin hazırlanmasının zəruriliyi də bu terminin dövriyyəyə daxil olmasına öz təsirini göstərmişdir. Hesab edirik ki, hal-hazırda sosial hüquq sistemindən yalnız tədris fənni kimi istifadə etmək kifayətdir.

Fikrimizcə, yaxın gələcəkdə sosial hüquq cəmiyyət həyatının bütün sahələrində insanın sosial müdafiəsinin təmin edilməsi üzrə münasibətləri tənzimləyən müxtəlif hüquq sahələrinin normalarını birləşdirən kompleks hüquqi təsisat kimi çıxış edəcəkdir.

10. Məcburi dövlət sosial sığorta təminatının müstəqil hüquq sahəsi kimi formalaşması və bərqərar olması üçün ilkin obyektiv şərtlərin olması zəruridir. Məcburi dövlət sosial sığorta təminatının inkişafının indiki mərhələsində onu sosial təminat hüququnun yarımsahəsi kimi nəzərdən keçirmək daha məqsədəmüvafiq olardı. Lakin bu yarımsahənin predmeti hüquq sahəsi kimi sosial təminat hüququnun predmeti ilə qismən üst-üstə düşsə də, məcburi dövlət sosial sığortasına yarımsahə kimi aşağıdakı tərifi vermək olar: "Məcburi dövlət sosial sığorta təminatı - məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslərə səlahiyyətli orqan – sığortaçı tərəfindən qanunvericiliklə müəyyən edilmiş şərtlərə, normalara və qaydalara uyğun olaraq məcburi dövlət sosial sığortası sistemi üzrə pensiyaların, müavinətlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı münasibətləri, habelə sığorta olunan şəxslərin belə təminata olan hüquqlarının reallaşdırılması və müdafiəsi üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur".

11. Sosial təminat hüquq sahəsinin strukturu məsələsi ilə bağlı hüquq ədəbiyyatında mövcud olan yanaşmaları ümumiləşdirərək

qəbul edilməsi təklif edilən AR Sosial Təminat Məcəlləsinin Ümumi hissəsinə hökmən daxil edilməli olan bir sıra institutları fərqləndirmək olar: sosial təminat qanunvericiliyinin məqsəd və vəzifələri; hüquqi tənzimetmənin əsas prinsipləri; sosial təminat qanunvericiliyi ilə tənzim edilən münasibətlər; münasibətlərin subyektləri və onların hüquqi vəziyyəti; sosial təminatın əsasları (sosial risklər); sosial təminatın növləri. Azərbaycanda sosial yönümlü dövlətin formalaşmasını və sahəvi qanunvericiliyin inkişaf tendensiyasını nəzərə almaqla bu siyahıya aşağıdakı müddəaları da daxil etmək zəruridir: sosial təminatla bağlı mərkəzi və yerli orqanlar arasında səlahiyyət bölgüsü haqqında; sosial təminat hüququ (onun digər sosial hüquqlar sistemində yeri) haqqında; sosial təminat qanunvericiliyinin pozulmasına görə məsuliyyət haqqında; sosial təminatın maliyyələşmə mənbələri haqqında. Məcəllənin Xüsusi hissəsinin strukturunun isə sosial təminatın növləri üzrə qurulmasının məqsədəuyğunluğu əsaslandırılmışdır.

Hesab edirik ki, gələcəkdə qəbul ediləcək sözü gedən məcəllə sosial təminat hüquq normalarının zəruri müstəqilliyini təsbit edəcək, dövlətdaxili hüquq sistemində sosial təminat hüquq sahəsinin və sosial təminat hüquq elminin nüfuzunu daha da artıracaqdır.

12. Dövlət sosial sifarişləri əsasında qeyri-hökumət təşkilatları tərəfindən sosial xidmətlərin göstərilməsi üzrə münasibətlər sosial təminat hüququnun predmetinə daxil olan yeni münasibət olduğuna görə bu sahədə formalaşmış olan təcrübə əsasında mövcud problemlərin aradan qaldırılması üçün aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir:

- sosial xidmətlər sferasında QHT-lərin fəaliyyətinin fasiləsizliyinin, uzunmüddətliliyinin və davamlılığının təmin edilməsi üçün AR NK-nin 30 dekabr 2012-ci il tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi" Qaydasına sosial xidmət sahəsində dövlət sifarişlərinə dair müqavilələrin azı 5 il müddətinə bağlanmasına və müqavilə öhdəliklərini layiqincə yerinə yetirmədikdə isə monitorinq mexanizmi nəticəsində icraçı QHT-ni sosial xidmət göstərməkdən

kənarlaşdırmaqla bağlı normanın daxil edilməsi;

- maddi-maliyyə vəsaitlərindən məqsədli istifadə edilməsinə və layihələrin səmərəli icrasına dair çevik nəzarət və monitorinq mexanizmini formalaşdırmaq üçün sosial xidmətlərin QHT-lər tərəfindən daha peşəkarcasına və keyfiyyətlə yerinə yetirilməsinə dair daimi fəaliyyət göstərən monitorinq və nəzarət sisteminin yaradılması;
- QHT-lərin təqdim etdikləri sosial xidmətlərin miqyasının və nomenklaturasının, sosial sferada investisiya layihələrinin miqyasının genişləndirilməsinin stimullaşdırılması mexanizmlərinin formalaşması üçün biznes strukturlarının sosial xidmət sahəsində həyata keçirilən sosial lahiyələrə cəlb edilməsi;
- QHT-lərin sosial xidmətlə bağlı normayaradıcılıq prosesinə fəal şəkildə cəlb edilməsi üçün onların qanunvericilik təşəbbüsünə təminat verilməsi və sosial xidmət qanunvericiliyinin təkmilləşdirilməsi prosesinə daha fəal şəkildə cəlb edilməsi və s.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri çap edilmişdir:**


1. Müasir dövrdə sosial təminat hüququnun hüquq sistemində yerinin müəyyən edilməsinin nəzəri aspektləri //–Bakı: Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, – 2011. № 3, – s.79-86
2. Müasir dövrdə sosial təminat qanunvericiliyinin sistemləşdirilməsi problemləri // – Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, – 2011. № 4, – s.206-210
3. Sosial təminat hüququnun predmetinin bəzi məsələləri // Ulu öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş “Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları” adlı Beynəlxalq konfransın materialları. – Bakı, – 2011, – s.95-97
4. Məcburi dövlət sosial sığortası sosial təminat hüququnun yarımsahəsi kimi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş “Dövlət və hüquq quruculuğunun aktual problemləri” mövzusunda 11-ci Respublika elmi-praktik konfransının materialları. – Bakı, – 11-12 may, – 2011, – s.266-267

5. Экспансия права социального обеспечения на современном этапе // – Москва: Журнал “Образование. Наука. Научные кадры”, – 2011. № 4, – с.94-97
6. Sosial təminat sistemi üzrə prosedur və prosessual hüquq münasibətləri // Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları. – Bakı, –2012, – s.318-321
7. Sosial təminat hüququnun predmetinə funksional yanaşma // “Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunçuluq-2020: Gələcəyə baxış” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı, –11-12 iyun, –2012, – s.176-178
8. Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin ümumi xarakteristikası // – Bakı: Nəqliyyat hüququ, – 2012. № 3, – s. 215-227
9. İnsan və vətəndaş hüquqları sistemində sosial hüquqların yeri və rolu haqqında // Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. – Bakı, – 18-19 noyabr, – 2013, – s.109-111
10. Sosial təminat sistemi üzrə pul ödəmələri ilə bağlı yaranan münasibətlər haqqında // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elminin və təhsilinin əsas inkişaf tendensiyaları” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı, –1-2 iyun, –2017, – s.348-350
11. Sosial təminat hüququnda hüquqi məsuliyyətin bəzi məsələləri // – Bakı “Dirçəliş-XXI əsr” jurnalı, – 2017. – № 183, – s.117-122
12. Sosial təminatın natural növləri ilə bağlı yaranan münasibətlər haqqında // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransının materialları. – Bakı, – 24 oktyabr, – 2017, – s.56-58
13. Sosial təminat hüququnda hüquqi məsuliyyətin bəzi məsələləri haqqında// Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş «Qloballaşma və Azərbaycan Respublikasında hüquq elminin əsas inkişaf

istiqamətləri» mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, – 2018, – s.412-414

14. Sosial tərəfdaşlıq prinsipi haqqında bəzi məsələlər//Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar” mövzusunda elmi-nəzəri konfransın materialları. – Bakı, – 2019, – s.482-487

15. Функциональный подход к предмету права социального обеспечения // Инновационные научные исследования: актуальные вопросы теории и практики. Сборник статей XXB международной научно-практической конференции. – Пенза, – 2021,– с.92-96

16. Об отношениях, возникающих при предоставления социальных услуг неправительственными организациями на основе социальных заказов// Теория и практика современной науки. Сборник статей VII международной научно-практической конференции. – Пенза, – 2022, – с. 116-119

Dissertasiyanın müdafiəsi "15" mart 2024-cü il tarixində saat 11:00-da Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BFD 2.44 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı ş., Zahid Xəlilov 33, I korpus, auditoriya 608

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "14" fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.01.2024

Kağızın formatı: 60x84

Həcm: 43540 işarə

Tiraj: 100